## Kənd təsərrüfatı xəbərləri

### Yazlıq bitki səpini artmışdır

Cari il aprelin 1-nə kimi ölkə üzrə 126,4 min hektar sahədə və ya ötən ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz çox yazlıq bitki səpini aparılıb.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, rüb ərzində 21,5 min hektar sahədə dənli və dənli paxlalı bitkilər, 28,8 min hektar sahədə kartof, 25,9 min hektar sahədə tərəvəz, 3 min hektar sahədə bostan bitkiləri, 3,1 min hektar sahədə şəkər çuğunduru, 2,9 min hektar sahədə dən üçün günəbaxan, 40,7 min hektar sahədə çoxillik otlar və 0,5 min hektar sahədə birillik otlar əkilib.

### Kənd təsərrüfatı məhsullarının istehsalı artıb

Cari ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 894,2 milyon manat təşkil edib.

Onun 857,7 milyon manatı heyvandarlıq, 36,5 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 3,6 faiz, o cümlədən heyvandarlıq məhsulları 2,8 faiz, bitkiçilik məhsulları isə 24,7 faiz artıb.

### Mal-qaranın sayı haqqında məlumat verilib

Cari il aprelin 1-i vəziyyətinə ölkə üzrə 2 milyon 672,7 min baş iribuynuzlu mal-qara, o cümlədən 1 milyon 284,8 min baş inək və camış, 8 milyon 563,7 min baş qoyun və keçi və 5 min 890 baş donuz mövcud olub.

Dövlət Statistika Komitəsinin məlumatında iribuynuzlu mal-qaranın 48,1 faizini inək və camışlar təşkil etdiyi bildirilir.

Bu dövr ərzində quşçuluq fabriklərində diri çəkidə 18,4 min ton quş əti və 176,5 milyon ədəd yumurta istehsal olunub.

Ümumilikdə, fabriklər üzrə cəmi quşların sayı 12 milyon 86 min baş olub və hər yumurtlayan toyuqdan orta hesabla 50 ədəd yumurta alınıb.

## Kəndimizlə qürur duyuruq

***Doğma yurdumuz Azərbaycanın şəhər və kəndləri, hər bir güşəsi gündən-günə inkişaf edir, abadlaşır, gözəlləşir. Qəbələmizin şan-şöhrəti əsrlər öncə olduğu kimi bu gün də ölkəmizin sərhədlərini aşıb, sorağı dünyanın hər guşəsindən gəlir. Qəbələ şəhəri kimi rayonumuzun inzibati ərazisinə daxil olan hər bir yaşayış məntəqəsində də quruculuq, abadlıq işləri geniş vüsət alıb. Hər şey insanların rifahı üçün, rahatlığı üçün deyən möhtərəm Prezidentimiz İlham Əliyevin çağırışı məhz onun diqqət və qayğısı sayəsində Qəbələdə uğurla yerinə yetirilir.***

Qəbələnin ən inkişaf etmiş yaşayış məntəqələrindən biri də mənim doğulub boya-başa çatdığım, uzun illər burada müxtəlif vəzifələrdə çalışdığım Nohurqışlaq kəndidir. Kəndimiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionların inkişafına göstərdiyi böyük qayğı sayəsində sosial problemlərin şəhərlər səviyyəsində həll olunduğu bir yaşayış məskənidir. Birinci növbədə kəndimiz ulu öndərin "mədəniyyət, iqtisadiyyat, bir sözlə həyat" adlandırdığı gözəl magistral yola malikdir.

Kənd tam orta məktəbinin müasir tipli yeni binası 2006-cı ildə istifadəyə verilmişdir.

Fəxr edirik ki, yeni məktəb binasının açılış mərasimində möh-



tərəm Prezidentimiz İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmiş, bu elm ocağına xeyir dualarını vermişlər.

Nohurqışlaq kənd tam orta məktəbinin məzunları ölkəmizin müxtəlif yerlərində, xarici ölkələrdə müvəffəqiyyətlə çalışır, doğma məktəbin və kəndimizin adını ucaldırlar.

Kəndimizdə son illər bir-birindən yaraşıqlı yaşayış evləri, müasir tələblərə cavab verən xidmət obyektləri tikilib və tikilməkdədir.

Kənd bütünlükdə qaz, elektrik enerjisi, içməli və suvarma suyu ilə təmin olunmuşdur.

Hələ keçmişdən işguzarlığı ilə tanınan Nohurqışlaq camaatı bu gün aqrar islahatların, bu sahəyə dövlət dəstəyinin onlara verdiyi imkanlardan ruhlanaraq taxıl, meyvə, tərəvəz, heyvandarlıq məhsulları istehsalını ildən-ilə artırırlar. Kənddə və kənd ətrafında gözəl meyvə bağları salınır.

Camaatımız tariximizə, mənəvi köklərimizə bağlılığa həmişə böyük dəyər vermişdir və bu gün də belədir. Bu günlərdə müqəddəs Ramazan ayı (orucluq ayı) başlayır. Kəndimizin dindarları Ramazanı yaraşıqlı məscid binasının açılışı ilə qarşılayacaqlar.

**Möylam ƏHMƏDOV,**
**kənd sakini, təqaüdçü.**

## Maraq dünyamız

# Venera - ağ planet

***Venera Günəş sistemində ikinci planetdir və bizim ən yaxın qonşumuzdur. Quruluşuna görə Yerə oxşayan Venera atmosferin istisini özündə saxlayır və öz oxu ətrafında başqa planetlərdən fərqli olaraq əksinə fırlanır. Günəş sistemində ən isti planet hesab edilən Venerada hətta qurğuşun belə əriyir. Buludların altında istidən deformasiyaya uğramış və vulkanlardan əmələ gəlmiş dağlar mövcuddur.***



Venera qədim Romada gözəllik və sevgi Allahının adı olub, bu isə onun eynisi sayılan yunan Allahı Afroditadır.

Veneranı izləmək istəyənlər ona açıq üfüqdə baxmalıdırlar. Buludlu səma görüntünü pozur.Bu planet o qədər parlaq işıq saçır ki, səmanın yerlə qovuşan hissəsində aydın görünür. Refraksiya nəticəsində planet qırmızı-sarı rəngə də çala bilər. Mart ayında bu səma cismi Günəşin çıxmasına bir saat qalmış göydə parlayır.

Radiusu 6052 km olan Venera demək olar ki, Yerin həcminə yaxındır, ancaq ondan bir qədər kiçikdir.

Günəşdən 108 milyon km məsafədə hərəkət edən Venera ondan 0.7 astronomik vahiddə yerləşir. Bir astronomik vahid Günəşdən Yerə qədər olan məsafədir. Günəşin işığı Veneraya 6 dəqiqəyə gəlib çatır.

Bu planetin orbiti və öz oxu ətrafında fırlanması çox nadir bir hadisədir. Planetlər arasında onunla yanaşı, Uran da şərqdən qərbə, yəni digər planetlər kimi deyil, öz oxu ətrafında əksinə fırlanır. Uran oxu ətrafında 243 Yer gününə fırlanır. Bu isə onu Günəş sistemində ən uzun günü olan planet kimi tanıdır. Ancaq Günəş o biri planetlərdə olduğu kimi, Venerada hər gün çıxıb-batmır və bir gecə-gündüz birlikdə 117 Yer gününə bərabərdir.

Veneranın Günəş ətrafında əsl dairəyə bənzəyən orbiti 225 Yer gününə bərabərdir. Digər planetlərin orbiti ondan fərqli olaraq oval, ellips şəklindədir. Onun oxu üzrə əyilməsi 3 faizdir və demək olar ki, şaquli formada dövr edir. Bu isə o deməkdir ki, orada ilin fəsilləri olmur.

Planet quruluşuna görə Yerə çox bənzəyir. Təxminən 3200 km radiusunda dəmirdən olan nüvəsi var. Nüvədən sonra qaynar qayadan ibarət tərpənən mantiya, daha sonra yerin nazik üz qabığı gəlir. Burada da mantiyada baş verən proseslərə görə tərpənişlər olur.

Venera fəzada ağ planet kimi görünür. Onu belə göstərən buludlardır. Onlar Günəşin şəfəqlərini çox yaxşı əks etdirir. Planetin səthində Yerdə olduğu kimi boz rəngdə daş-qayalar var. Amma bulud Günəşin şüalarını filtrdən keçirdiyi üçün burada hər şey narıncı rəngə çalır.Bu planetdə dağlar, dərələr, minlərlə kiçik vulkanlar var. Orada ən hündür dağ (8800 m) Maksvel dağıdır. Bu dağ Yerdə olan Everest dağına bənzəyir. Maksvel dağı bütünlükdə toza bürünüb. Planetin səthində hərarət 471°C-yə qalxır.

Belə bir fikir var ki, Venera planet kimi 350-500 milyon il bundan öncə vulkanlardan əmələ gəlmişdir. Venerada iki dağlıq ərazi var. İshtar Terra qutb tərəfdə yerləşir, həcminə görə təxminən Avstraliya ölçüsündədir. İkinci dağ Afrodita Terra isə Cənubi Amerika ölçüsündə, planetin ekvatoru tərəfində 10000 km uzunluğundadır.

Planetin səthi kraterlərlə doludur. Amma bu kraterlərdən heç biri eninə görə 2 km-dən az deyil. Kiçik meteoritlər fəzada yanıb qurtarırlar. Buna görə də yalnız böyük meteoritlər planetin səthinə gəlib çata bilir.

Onun səthində olan obyektlərin hamısı qadın adını daşıyır. Bu adlar həm əfsanəvi, həm də real qadın adlarıdır. Vulkanik kraterin biri Sacajavea adlanır. Bu, Lüis və Klark ekspedisiyasına bələdçilik edən hindu qadının adıdır. Dərin bir dərənin adı isə Roma Allahı Diananın adı ilə bağlıdır.

Veneranın atmosferi əsasən karbon dioksidindən, buludları isə kükürd turşusundan ibarətdir. Sıx atmosfer Günəşin istiliyini özündə saxlayır. Bu da planetdə temperaturun 470 dərəcəyə çatmasına səbəb olur. Bu planetdə küləklər saatda 360 km məsafə qət edir. Buludlar arasında olan qığılcımlar sürətlə hərəkət edən havanı işıqlandırır. Planetin səthindən yuxarı qalxdıqca küləyin sürəti aşağı düşür. Burada atmosfer o qədər ağırdır ki, insan belə yerdə özünü 1,6 km dərinliyində suda olduğu kimi hiss edərdi.

İndiyədək insan övladı Venerada olmayıb. Lakin belə bir fikir var ki, nə vaxtsa orada həyat olub. Bu planetə göndərilən kosmik aparatlar da orada çox davam gətirə bilməyib. Yüksək temperatur aparatların elektronikasını qızdırır və sıradan çıxarır.

Peyki olmayan Venera ölçüsünə görə Yer həcmində olmasına baxmayaraq, onun maqnetik sahəsi çox zəifdir. Bu, onun öz oxu ətrafında ləng fırlanması ilə bağlıdır.

## Təlimlərə başlanılıb

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində kənd təsərrüfatı və turizm sahələrində dual peşə



təhsili və təliminin pilotlarının yaradılması layihəsi çərçivəsində təlimlərə başlanılıb. Təlim "Fəaliyyətyönümlü öyrənmə və tədris", "Şirkətdaxili təlimçilərin təlimi", "Peşə məktəbləri və sənaye müəssisələri arasında əlaqələrin yaradılması" istiqamətlərini əhatə edir.

Layihə Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi" qrantı çərçivəsində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən icra olunur.

**"Qəbələ"**

## Aqrar sığortaya diqqət artırılır

"Aqrar sığorta haqqında" qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub. Qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı qeyd olunub ki, bu vaxta qədər qüvvədə olan "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanun aqrar sahədə sığortanı tam əhatə etmir. Ölkəmizdə kənd təsərrüfatı sahəsində ixtisaslaşmış sığorta şirkətinin olmaması və digər amillər hazırda bu sahədə sığorta mexanizminin lazımı səviyyədə işləməsinə mane olub. Ona görə də aqrar sığorta ilə bağlı problemləri həll etmək üçün yeni qanunun qəbul edilməsinə ehtiyac yaranıb.

"Aqrar sığorta haqqında" yeni qanun layihəsi 4 fəsildən və 21 maddədən ibarətdir ki, burada sığortanın hüquqi, iqtisadi və təşkilati əsasları ilə bağlı məsələlər dolğun şəkildə öz əksini tapıb.

Yeni qanunun qəbulu kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslərin bu sahəyə marağını artıracaqdır.

Məlumdur ki, kənd təsərrüfatının bir sıra məhsulların istehsalı, xüsusən bitkiçilik, meyvəçilik üzümçülük və sair sahələr əsasən təbiətdən asılı olduğuna görə riskli sahələr sayılır. Bu sahələrin sığorta olunması kənd təsərrüfatı ilə məşğul olanlara əlavə stimul verəcəkdir. Bu da ölkəmizin aqrar sektorunda müsbət meyllərin daha da güclənməsinə şərait yaradacaqdır.

**"Qəbələ"**